# Uğurları ona stimul verir ki, daha səylə çalışsın



Cavid Əzizov 1994-cü ildə Göyçay rayonunda anadan olub. 2009-cu ildə Ayaz Məhərrəmov adına 95 nömrəli tam orta məktəbi, 2008-ci ildə 1 nömrəli Uşaq İncəsənət Məktəbini fortepiano ixtisası üzrə bitirib. Cavid 2010-2014-cü illərdə Azərbaycan Milli Konservatoriyasının tərkibində Musiqi Kollecinin instrumental ifaçılıq şöbəsində fortepiano ixtisası üzrə təhsil alıb. 2014-cü ildə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasına instrumental ifaçılıq şöbəsinin fortepiano ixtisası üzrə bakalavr pilləsinə qəbul olunub. Hazırda akademiyanın II kurs tələbəsidir. İxtisas fənnindən müəllimi Bakı Musiqi Akademiyasının professoru, əməkdar müəllim Nəzakət Rimazindir.

Cavid beynəlxalq müsabiqələr laureatıdır və ISESCO-nun, Gənclər və İdman Nazirliyinin dəstəyi və "Kainat" Gənclik Mərkəzinin təşkilatçılığı ilə keçirilən "İslam Dünyasının gənc (20 yaşadək) klassik musiqi ifaçılarının IV beynəlxalq müsabiqəsinin" ( II yer), Bolqarıstanda keçirilən "World Stage 2015" beynəlxalq müsabiqəsinin (I yer), Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının dəstəyi ilə Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən "Global Fest Peterburq 2016" beynəlxalq müsabiqəsinin solo nominasiyasının iştirakçısı olub. Respublika daxilində keçirilən bir çox müsabiqə və konsertlərdə də fəal iştirak edib.

Cavid Əzizov söhbət zamanı bildirib ki, beynəlxalq müsabiqə və musiqi festivallarında qazandığı uğurlar ona stimul verir ki, daha səylə çalışsın.